Tədbirdə Təhsil Nazirliyinin müvafiq struktur bölmə rəhbərləri, təhsil mütəxəssisləri, elm adamları, məktəb direktorları, müəllimlər və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

“Dəyirmi masa” iştirakçıları Dövlət Strategiyası çərçivəsində təhsilin inkişaf prioritetləri və keyfiyyətin təmin edilməsi barədə fikirlərini nəzərə çatdırıblar. Dövlət Strategiyasında nəzərdə tutulmuş müddəalarən uğurla həyata keçirilməsi üçün ictimai dəstəyin əhəmiyyəti qeyd olunub, pedaqoji sahədə çalışanların müvafiq islahat və yeniliklərə hazır olmasının zəruriliyi vurğulanıb.

Müzakirələr zamanı geniş fikir mübadiləsi aparılıb, müəllimləri və ictimaiyyət nümayəndələrini maraqlandıran suallar cavablandırılıb.